**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**LEYLİ ƏLİ QIZI HƏMİDOVA**

# TÜRKİYƏ VƏ AVROPA İTTİFAQI MÜNASİBƏTLƏRİ

**İxtisas: 23.00.04 - "Beynəlxalq münasibətlərin və qlobal inkişafın siyasi problemləri"**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2013**

İş Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Tarix elmləri doktoru, professor
**Ə. M. Həsənov**

**Rəsmi opponentlər:** Siyasi elmlər doktoru, professor
**A.M.Mirabdullayev**

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**L.Z.Qarayeva**

**Aparıcı təşkilat:** AMEA-nın Fəlsəfə Sosiologiya və Hüquqi İnstitutunun "Beynəlxalq münasibətlər və Beynəlxalq hüquq şöbəsi"

Müdafiə 25/04_ 2013-cü il saat ___da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində FD 02. 101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, M. Lermantov küç.,74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "______" _________________ 2013-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent S. İ. Məmmədova

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** 1950-ci illərdə Qərbi Avropanın bir neçə dövləti birləşərək Avropada möhkəm sülhü və demokratik inkişafı bərpa etməyə nail oldular. Avropa inteqrasiyası nəticəsində dövlətlər arasında münaqişə yaradan elementlər uzunmüddətli və davamlı əməkdaşlıq prosesi ilə əvəz olundu. Belə ki, Qərbi Avropa çərçivəsində daxili bazar, vətəndaşlıq, valyuta, daxili işlər, ədliyyə, xarici siyasət və təhlükəsizlik sahəsində vahid əməkdaşlıq institutları yaradıldı və bu institutlar sabit sülhün təşəkkül tapmasını təmin etdi. Bu gün Avropa İttifaqı dünyada yeganə beynəlxalq sturukturdur ki, 2,5 ilə seçilən prezidentə, xarici işlər nazirinə, vahid valyutaya və digər dövlətçilik əlamətlərinə və dəyərlərə malikdir.

Ümummilli lider Heydər Əliyev Avropa parlamentinin deputatları ilə görüşündə qeyd edirdi ki, Azərbaycanın bugünkü reallığı Avropa və Şərq milli dəyərlərinin sintezindən ibarətdir. Avropa dəyərlərinin üzərinə bunu əlavə etsək, Avropa dəyərləri daha da zəngin olacaqdır.[1]

1959-cu ildə Türkiyə üzv olmaq məqsədilə fövqəlmilli sturuktura malik olan Avropa İttifaqına müraciət etmişdir. Lakin, Türkiyənin Avropa İttifaqına üzv olmaq üçün əlli ildən artıq müddətdə göstərdiyi fəaliyyət son nəticənin əldə edilməsinə imkan verməmişdir. Türkiyə hazırki dövrə qədər Aİ-nin tam hüquqlu üzvü ola bilməmişdir.

Müasir beynəlxalq münasibətlər sistemində inkişaf edən bir çox hadisə və proseslər Türkiyə Cümhuriyyətinin siyasi və strateji önəmini artırmışdır. Çağdaş dövrdə Türkiyə yalnız üç qitəni birləşdirən strateji coğrafi yerinə görə deyil, həm də bir sıra daxili siyasi və xarici siyasi xüsusiyyətlərinə - üstünlüklərinə görə mühüm əhəmiyyət kəsb edən ölkələrdən biridir.

Türkiyə Cümhuriyyətində demokratiyanın fundamental şərtlərindən biri olan siyasi mübarizənin və sosial fəallığın səviyyəsi klassik demokratiyalar sayılan ABŞ və Qərbi Avropa dövlətlərindən mahiyyətinə, məzmununa və formalarına görə fərqlənmir. Müsəlman ölkəsi kimi Türkiyənin demokratiyanın inkişafı sahəsində əldə etdiyi naliyyətlərin demək olar ki, bütün Şərqdə bərabəri mövcud deyil. Türkiyə iqtisadi inkişafı ilə də fərqlənir. Böyük iyirmiliyin üzvü kimi Türkiyə dünyanın iqtisadi cəhətdən ən inkişaf etmiş on ölkəsi sırasına daxildir.

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 42 cilddə, c. 34. Bakı , Azərnəşr, 2011. s.73



Beləliklə, Türkiyənin daxili və beynəlxalq potensialı, onun müasir beynəlxalq sistemdə artan geosiyasi rolu, habelə Avropa İttifaqının malik olduğu unikal xüsusiyyətlər və beynəlxalq sistemdəki rolu beynəlxalq münasibətlərin bu iki subyekti arasında qarşılıqlı münasibətlərin problemlərini elmi və siyasi cəhətdən öyrənilməsini zəruri edır.

Avropa İttifaqının ötən əsrin sonlarından formalaşdırmağa başladığı və dünya siyasətində daha böyük rol oynamaq məqsədindən irəli gələn təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq prosesi hərbi cəhətdən güclü olan Türkiyə kimi dövlətin dəstəyi ilə daha təsirli beynəlxalq mexanizmə çevrilə bilər. Türkiyə Avropanın strateji və təhlükəsizlik siyasəti çərçivəsində, xüsusilə Yaxın Şərq, Qara dəniz regionlarında sülh, təhlükəsizlik və sabitliyin təmin olunmasına böyük töhvə verə bilər. Həmçinin, Türkiyənin təşkilata üzv qəbul olunması iqtisadiyyatın inkişafını və regional bazarların böyüməsini, təbii ehtiyatların zənginləşməsini, qlobal enerji siyasətində Avropanın təsirinin artmasını, Yaxın Şərq və Orta Asiya enerji qaynaqlarına yönəlmiş siyasətin həyata keçirilməsini və bütövlükdə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasını reallaşdıra bilər.

Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycan da mühüm rol oynayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının prezidenti H.Van Rompeyi ilə görüşündə qeyd edirdi ki, Azərbaycan Avropanı enerji resursları ilə təmin edən ən etibarlı tərəfdaş- lardan biridir.[1] Azərbaycanın bu və digər sahələrdə Avropa İttifaqı ilə əməkdaşlığının , bu münasibətlərin inkişaf tendensiyalarının öyrənilməsi vacibliyi də tədqiqat mövzusunun aktuallığını təsdiq edir.

Avropa İttifaqına üzvlük Türkiyənin öncə qeyd etdiyimiz daxili və xarici sahədə əldə etdiyi üstünlükləri qoruyub saxlamasını, möhkəmləndirməsini və davamlı inkişafını təmin edəcəkdir. Bundan əlavə, Türkiyə iqtisayyatının inkişafı, onun güvənli və geniş bir bazara sahib olması regionun enerji qaynaqları üzərində təsirinin artmasına, Yaxın Şərq, Qafqaz, Orta Asiya, Qara dəniz və Şərqi Aralıq dənizi regionlarında iqtisadi təsirinin güclənməsinə şərait yaradacaqdır.

Lakin göstərilən bütün səylərə baxmayaraq, Türkiyənin Aİ-nin üzvü ola bilməməsi beynəlxalq münasibətlərin bu iki subyekti arasında mürəkkəb problemə çevrilmişdir ki, onun öyrənilməsi elmi - siyasi və praktik əhəmiyyət kəsb edir.

[1] İlham Əliyev və Avropa İttifaqının prezidenti Herman Van Rompey birgə mətbuat üçün bəyanatları. 22 iyun 2011//az. President. az /articles / 2789

**Problemin işlənmə dərəcəsi.** Türkiyə və Avropa İttifaqı münasibətlərini araşdıran tədqiqat işlərini bütövlükdə iki qrupa bölmək olar. Birinci qrupa Türkiyə-Avropa İttifaqı münasibətlərinin tarixi aspektlərini, ikinci qrupa isə Türkiyə-Aİ münasibətlərinin müasir vəziyyətini və perspektivlərini öyrənən əsərlər daxildir.

Harun Gümrükçünün, İlham Tekeli və Selim İlkinin, Gencer Özcanın, C.Duranın və H.Atikin, Cəmil Həsənlinin, K.Kunakovun əsərlərində Türkiyə-Aİ münasibətlərinin tarixi təkamülü prosesi öyrənilmişdir.[1] Bu əsərlərdə, birincisi, Türkiyə-Avropa İttifaqı münasibətlərinin siyasi aspekt- ləri tədqiq edilir.

Bu baxımdan Harun Gümrükçünün 3 cildlik "Türkiyə və Avropa Birliyi" adlı araşdırması tədqiqat mövzusunun işlənməsində mühüm rol oynayan əsərlərdən biridir.

İlham Tekeli və Səlim İlkinin "Avropa Topluluğu" adlı tədqiqat işində 1980-ci il hərbi çevrilişindən başlayaraq, Aİ-Türkiyə əməkdaşlığının zirvə nöqtələrindən hesab edilən Gömrük Birliyinin yaradıldığı tarixə qədər, yəni 15 il ərzində baş verən hadisələr araşdırılır və bir sıra maraqlı mülahizələr irəli sürülür.

Gencer Özcan "Türkiyədə siyasi rejim və dış politika (1983-1993)" adlı məqaləsində 1983-1993-cü illərdə Türkiyənin siyasi rejimi və xarici siyasəti arasındakı əlaqəni təhlil edir. Müəllif əvvəlcə milli təhlükəsizlik anlayışı və xarici siyasət əlaqələrini izah edərək, daha sonra Türkiyənin siyasi rejimini tədqiq etmişdir.

Dəniz Vardar "Türkiyə Avropa Topluluğu ilişkiləri" adlı əsərində əvvəlcə Avropada yaranan inteqrasiya proseslərini şərh edir.[2] Müəllif iqtisadi təməllər üzərində yaranan Aİ-nin sonradan siyasi birliyə çevrilməsi mexanizmlərini və Türkiyənin belə bir bütünləşmiş inteqrasiyanın içərisinə daxil olma imkanlarını araşdırmağa çalışmışdır.

---

[1] Gümrükçü Harun. Türkiyə və Avropa Birliyi. İ. 2002. s. 479; Tekeli İlham, İlkin Selim. Avropa Topluluğu. A. 2000. s.575; Gencer Özcan. Türkiyede siyasi rejim ve dış politika (1983-1993). İ. 1998. s.293-314; Yurdusev N. Türk dış politikası ve Avropa Birliyi məsələsi // Liberal düşünce // İ. 1997. s. 86-98; Dura C. Atik H. Avropa Birliyi, Gömrük Birliyi ve Türkiye. A. 2003. s.488; Həsənli Cəmil. SSRİ-Türkiyə; Soyuq müharibənin sınaq meydanı. B. 2005. s.544; Кунаков В.В. Турция и ЕС: проблемы экономической интеграции. М. 1999.
[2] Deniz Vardar. Türkiyə-Avropa topluluğu ilişkiləri. İ. 2000. s.121-132.



Verna Türkdoğanın "Avropa Birliyi və Türkiyə ilişkiləri" adlı araşdırmasında Türkiyə-Aİ münasibətləri tarixi inkişaf aspektində təhlil olunur.[1]

A.A.Rodionov 1974-1983-cü illərdə Türkiyədə Rusiyanın rəsmi səfiri olarkən qələmə aldığı araşdırmasıTürkiyə-Rusiya ikitərəfli münasibətləri, o cümlədən siyasi və mədəni əlaqələr, müəllifin şəxsi iştirakı ilə aparılan danışıqlar xüsusi elmi maraq doğurur[2].

Tədqiqat probleminə həsr olunmuş əsərlərin ikinci qrupunda Türkiyə-Avropa İttifaqı münasibətlərinin iqtisadi aspektləri araşdırılır.

C.Duranın və H.Atikin "Avropa Birliyi, Gömrük Birliyi və Türkiyə"adlı birgə qələmə aldıqları tədqiqat işində Avropa İttifaqı və Türkiyə arasında başda Gömrük Birliyi olmaqla iqtisadi əlaqələrin yaranma tarixi və bugünkü nəticələri geniş təhlil olunur[3].

Rusiya tədqiqatçısı B.B.Kunakovun kitabında Türkiyə - Aİ münasibətlərinin iqtisadi aspektlərinin araşdırılması baxımından maraq doğurur.[4]

Baturalp Kaplanın "Türkiyə-Avropa Birliyi ilişkileri və Gömrük Birliyi" məqaləsində əlaqələrin tarixi keçmişi iqtisadi zəmində araşdırılır. Araşdırmada Gömrük Birliyinin yaradılması mexanizminin və Türkiyənin xarici ticarət fəaliyyətinin geniş şərh olunması dissertasiya müəllifinə əməkdaşlığın iqtisadi aspektlərini təhlil etməkdə kömək etmişdir.[5]

B) Kemal Dərviş, Daniel Qros, Michael Emerson və Ülqenin, Erol Manisalının, Adnan Kalkanın, Əli Bulacın, İsmayıl Cemin və digər müəlliflərin əsərlərində Türkiyə-Avropa İttifaqı münasibətlərinin müasir vəziyyəti və perspektivlərinə dair məsələlər öyrənilmişdir.[6]

---

[1] Berna Türkdoğan. Avropa Birliyi və Türkiyə ilişkiləri // Atatürk araşdırmaları mərkəzi dərgisi // cild 14. İ. 1998. s.417-447.
[2] Родионов А.А. Турция перекресток судеб. М . 2000. стр. 279.
[3] Dura C. Atik H. Avropa Birliyi Gömrük Birliyi və Türkiyə. A. 2003. s. 488.
[4] Кунаков В.В. Турция и ЕС: проблемы экономицеской интеграции. М.1999. с.189.
[5] Baturalp Kaplan. Türkiyə-Avropa Birliyi ilişkileri və Kömrük Birliyi süreci //SAD // İ. 2000 s.22-35.
[6] Derviş Kemal, Qros Daniel, Emerson Michael, Ülqen Sinan. Çağdaş Türkiyənin Avropa dönüşümü, İ. 2004; Manisalı Erol. AB sürecimi? Sevr sürecimi? İ. 2006. s.194; Kalkan Adnan. Avropa Birliyimi? Türk Birliyimi? A. 2007. s.528; Bulaç Eli. Avropa Birliyi ve Türkiye. İ. 1999. s.415; Cem İsmayıl. Türkiye, Avropa, Avrasiya-Avropanın Birliyi ve Türkiye. İ. 2006. s. 194.

Kemal Derviş, Daniel Qross, Mishael Emersonun və Ülqenin birgə qələmə aldıqları "Çağdaş Türkiyənin Avropa dönüşümü" adlı tədqiqat işində Türkiyənin Avropa İttifaqına üzvülüyünün əməkdaşlıq münasibətlərinin daha kiçik sahələrinin inkişaf etdirilməsi yolu ilə baş verə biləcəyi xüsusilə təhlil obyekti olmuşdur. Əsərdə qeyd edilir ki, Avropa Birliyi ilə inteqrasiyanın həyata keçirilməsi üçün ayrı-ayrı sahələrdə əməkdaşlığın gücləndirilməsi ilkin şərtdir.

1997-2002-ci illərdə Türkiyənin xarici işlər naziri olmuş İsmayıl Cemin "Avropanın Birliyi və Türkiyə" adlı əsərində Avropa İttifaqı ilə xarici siyasi əməkdaşlıq münasibətlərinin hadisələrin bilavasitə iştirakçısı tərəfindən işıqlandırılması tədqiqat mövzusunun araşdırılmasında böyük rol oynamışdır.

Türkiyənin Aİ-yə inteqrasiya siyasətinə tənqidi yanaşan müəlliflər içərisində Erol Manisalı xüsusilə fərqlənir.[1] Onun "AB sürəcimi? Sevr sürecimi?" adlı əsərində Aİ-nin Türkiyəyə münasibəti tamamilə fərqli aspektdən araşdırılmışdır. Müəllifin fikrincə, ortada bir oyun oynanılır. Bu tamaşanın adı Avropa Birliyidir. Türkiyə Avropa İttifaqının nəzarəti altına düşənə qədər bu tamaşa davam edəcəkdir.

Mehmet Uğur və Adnan Kalkanın əsərlərində qarşılıqlı əməkdaşlığın inkişafında Türkiyə vətəndaşlarının rolu təhlil olunur, ölkənin ərazi qurluşunun qorunub saxlanmasının vacibliyi vurğulanır.[2]

Tədqiqat mövzusunun araşdırılmasında Azərbaycan alimləri Ə.Həsənovun, H.Hüseynovanın, S.Həmidovun, R.İbadovun əsərlərindəki təhlillər də mühüm rol oynamışdır[3].

Beləliklə, təhlil etdiyimiz elmi əsərlərdə Avropa İttifaqı və Türkiyə münasibətlərinin siyasi və iqtisadi aspektlərinin bir sıra məsələləri bu münasibətlərin qurulması, bəzi inkişaf mərhələləri və mövcud durumu araşdırılsa da, öyrəndiyimiz əsərlərin heç birində beynəlxalq münasibətlərin bu iki subyektinin qarşılıqlı münasibətlərin bütün dövrü və əməkdaşlığın siyasi, iqtisadi sferaları və beynəlxalq aspektləri

[1] Manisalı Erol. AB sürecimi? Sevr sürecimi? İ. 2006. s. 194

[2] Uğur Mehmet. Avropa Birliyi ve Türkiye // Bir dayanak inandırıcılq iklemi.A., 2000. s. 37; Kalkan Adnan. Avropa Birliyimi? Türk Birliyimi? // İQ Kültür Sanat yayıncılıq // A. 2007. s. 528.

[3] Həsənov Əli. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti . B.2005.s 752; Hüseynova H. Azərbaycan Avropa inteqrrasiya prosesləri sistemində // Hərbi nəşriyyat . 2003 . s 280 ; Həmidov S. Avropa İttifaqında siyasi inteqrasiya prosesləri və Azərbaycan. B. 2003. s 271; İbadov Rza. Avropa İttifaqının əsasları . B . 2004. s 212



hərtərəfli və kompleks şəkildə, vahid problem halında araşdırma obyekti olmamışdır. Göründüyü kimi, Türkiyə-Avropa İttifaqı əməkdaşlığı prosesinin müəyyən aspektləri görkəmli xarici politoloqlar tərəfindən öyrənilmişdir. Bununla belə, Azərbaycan siyasi elmində Türkiyə-Aİ münasibətlərinin vahid problem kimi öyrənilməsinə elmi və siyasi zərurət mövcuddur.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyektini Avropa İttifaqı ilə Türkiyə arasında qarşılıqlı siyasi, iqtisadi münasibətlərin təşəkkülü və inkişafı prosesləri, hər iki tərəfin bu istiqamətdə yürütdükləri siyasət, predmetini isə Türkiyənin Avropa İttifaqının tamhüquqlu üzv olmasını əngəlləyən siyasi, dini – ideoloji, iqtisadi amillər, bu sahədəki siyasi münasibətlərin xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın başlıca məqsədi Türkiyə-Aİ münasibətlərini qurulmasını, təkamülünü, müasir vəziyyəti və perspektivlərini tədqiq edərək Türkiyənin bu təşkilata tamhüquqlu üzv olmasını problemə çevirən amilləri müəyyən etmək, həmin problemin həlli ilə bağlı təklif və tövsiyələr irəli sürməkdən ibarətdir.

Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı vəzifələr irəli sürülmüş və yerinə yetirilmişdir:

-Avropada inteqrasiyasının yaranması və onun nəzəri əsaslarının təhlili;

-Türkiyənin Qərbi Avropa sturukturlarına inteqrasiya prosesinin başlanmasını və xarici siyasətinin prioritetlərini müəyyənləşdirmək;

-Türkiyənin Avropa Birliyi ilə əməkdaşlığının təkamülünü izləmək, əməkdaşlığın əsas problemlərini təhlil etmək;

-Türkiyənin beynəlxalq və daxili siyasi vəziyyətinin Avropa Birliyi ilə münasibətlərinə təsirini öyrənmək və bu istiqamətdə təhlillər aparmaq;

- Türkiyənin Avropa İttifaqı ilə ikitərəfli münasibətlərini araşdırmaq, bu münasibətlərin Azərbaycanın Aİ – yə inteqrasiyasına təsir imkanlarını tədqiq etmək;

-Avropa İttifaqının Şərqə doğru genişlənməsi siyasəti çərçivəsində Azərbaycanla münasibətlər və bu münasibətlərin İttifaqın Türkiyə ilə əlaqələrinə təsirini təhlil etmək;

-Türkiyə-Avropa İttifaqı qarşılıqlı münasibətlərinin perspektivlərini təhlil etmək, Türkiyənin Birliyə tam hüquqlu üzv olmaq imkanlarını araşdırmaq və bu istiqamətdə konkret mülahizələr yürütmək.

**Tədqiqat işinin nəzəri-metodoloji əsasları**. Tədqiqat işində müəllif problemlə bağlı fundametal elmi əsərlərin, konseptual nəzəri müddəaların hərtərəfli təhlilinə əsaslanmışdır.

Tədqiqat prosesində ümummәntiqi metodlardan - analiz, sintez, ümumləşdirmə, induksiya, deduksiya, habelə bir sıra siyasi təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqat işinin mənbəşünaslıq bazası**. Problemin öyrənilməsində aşağıdakı mənbələrdən istifadə olunmuşdur: Avropa İttifaqının təsis müqavilələri, Aİ-nın zirvə görüşlərində qəbul olunan sənədlər, Türkiyə-Aİ arasında bağlanmış Ankara müqaviləsi, Avropa İttifaqı tərəfindən Türkiyə üzərinə qoyulan "Gedişat " məruzələri, və s. elmi mənbələr tədqiqat prosesi zamanı başlıca rol oynamışdı. Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin çıxış və bəyanatlarından ilkin mənbə kimi istifadə olunmuşdur.[1] Tədqiqat mövzusunun bəzi aspektlərinin öyrənilməsində Internet materialları da mühüm rol oynamışdır.

Beləliklə, göstərilən mənbələr müəllifə dissertasiya işi üzərində işləməyə əhəmiyyətli kömək etmişdir.

**Dissertasiyanın elmi yeniliyi**.

-Türkiyə və Avropa İttifaqı münasibətlərinin bütün dövrü vahid problem şəklində və kompleks tədqiq edilir.

-Türkiyənin Avropa İttifaqına daxil olmasını əngəlləyən səbəblər çox saylı elmi faktların təhlili əsasında araşdırılaraq, subyektiv amillərin Türkiyənin Aİ-yə inteqrasiyasına mane olması sübut edilmişdir.

-Aİ-Türkiyə münasibətləri beynəlxalq münasibətlər sisteminin təkamülü və transformasiyası, habelə geosiyasi dəyişikliklər konteksində təhlil olunmuşdur.

-Türkiyə daxilində siyasi dəyişikliklərin və siyasi proseslərin Aİ-Türkiyə münasibətlərinə təsirləri yeni elmi mənbələrin öyrənilməsi əsasında müəyyən edilmiş və sübut edilmişdir.

-Aparılan elmi araşdırılmalara əsasən Türkiyənin Aİ-nin tam hüquqlu üzv olması üçün zəruri olan əsas tələblərə və meyarlara cavab verdiyi sübuta yetirilmişdir.

---

[1]Treaty of Asmsterdam // http: europa. eu int./ eur-lex / lex / en / treaties / dat / 2002 M. Polf // 2002 M. En; Türkiye ile AET arasındakı ortaklık antlaşması (belqeler / Temel anlaşma metnleri). // Ali Bulacın eserinden //. 1999. s 276; AB müqtesebatına uyum proqramı. http: www. abgs.gov.tr / indexs.php = 681=1; Heydər Əliyev. Müstəqilliyimiz əbədidir . 42 cilddə, c 34 . Bakı, Azərnəşr , 2011. s 73; İlham Əliyev və Avropa İttifaqının prezidenti Herman Van Rompey birgə mətbuat üçün bəyanatları . 22 iyun 2011 // az .President . az/ articles / 2789



-Tədqiqat işində istifadə olunan bir çox mənbələr və xaricdə nəşr olunan ədəbiyyatlar ilk dəfə elmi dövriyyəyə gətirilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri və materiallarından problemlə bağlı gələcək elmi araşdırmalarda, elmi konfransların keçirilməsində, eləcə də, beynəlxalq münasibətlər, regionşünaslıq, politologiya ixtisasları üzrə mütəxəsislərin hazırlanmasında istifadə oluna bilər. Dissertasiyanın materiallarından ali məktəblərdə "Beynəlxalq təşkilatlar", "Müasir inteqrasiya prosesləri", "Beynəlxalq münasibətlər tarixi" və digər fənlərin tədrisində istifadə etmək olar. Dissertasiya işinin nəticələri müvafiq dövlət orqanlarının Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişaf etdirilməsi prosesində praktik vəsait kimi faydalı ola bilər.

**İşin aprobasiyası**. Dissertasiyanın əsas müddəaları və nəticələri Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında müzakirə edilmiş və müdafiəyə tövsiyə olunmuşdur. Tədqiqatın əsas məzmunu müəllifin Azərbaycanda və xaricdə nəşr etdirdiyi 10- dan çox elmi işlərində öz əksini tapmışdır.

**Dissertasiyanın sturukturu.** Dissertasiya girişdən, üç fəsildən, altı paraqrafdan, nəticədən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilir, onun elmi yeniliyi, nəzəri-metodoloji və mənbəşünaslıq bazası, həmçinin nəzəri və praktik əhəmiyyəti göstərilir, problemin öyrənilmə səviyyəsi nəzərdən keçirilir.

**Birinci fəsil "Avropa Birliyində inteqrasiyanın nəzəri əsasları, strateji inkişaf hədəfləri və Türkiyə"** adlanır. İki paraqrafdan ibarət olan bu fəsildə Avropa İttifaqının ideoloji əsasını təşkil edən Avropa ideyasının yaranması, inteqrasiyanın nəzəri əsasları və Türkiyənin Qərbi Avropada formalaşan beynəlxalq sturukturlara inteqrasiya siyasətinin ilkin mərhələsi tədqiq olunur.

**Birinci paraqrafda "İnteqrasiya nəzəriyyələri və Avropa dövlətləri arasında birliyi zəruri edən amillər"** təhlil edilmişdir. Karl Doyç, Klaude, Estoni əsərlərində Avropa İttifaqının yaranmasında Avropa dövlətləri arasında müharibələrin qarşısını almaq və sülhü təmin etmək üçün funksionalizmi əhəmiyyətli nəzəriyyə olaraq qiymətləndirir.

Karl Doyç inteqrasiyanı dövlətlərarası münasibətlərdə daha dərin və uzunmüddətli əməkdaşlığa yol açan proses adlandırır. Xalqların ortaq maraqları və onların mədəni dəyərləri arasında uyğunluq yaradılmasının vacibliyini irəli sürən funksionalist nəzəriyyəçilər siyasi birliyin yaradılmasını inteqrasiya üçün önəmli şərt hesab edirlər. Bu fikirləri dəstəkləyən nəzəriyyəçilər içərisində Estoni xüsusilə fərqlənir. Leon Lindberq, Çarlez Petlend, Kohen və Nay xüsusilə siyasi inteqrasiyanın yaradılmasında dövlətlər arasındakı qarşılıqlı asılılığın mənfi təsirlərini kordinasiya yolu ilə nəzarət altına almağın mümkünlüyünü qeyd edirlər.

İnteqrasiya problemini öyrənən nəzəri istiqamətlərdən olan neofunksionalizmin nümayəndələri arasında Ernst Haas, Filippe Şmibber, Leon Lindberq, Josef Nay, Robert Kohen, Lauvense Şainmanın əsərlərində rast gəlinən ortaq bir istiqamət Avropa Birliyinin yaradılması və inkişafının araşdırılmasıdır.

Federalizm nəzəriyyəsinin nümayəndələri isə belə bir müddüanı əsas götürürdülər ki, federativ sistem Qərbi Avropadakı milli eqoizmə qapılmış dövlətlər konqlomeratı üçün ideal sayılır. Federalizm tərəfdarlarına görə, federativ forma mərkəzi institutlarla federasiyanın hissələri arasında optimal proporsiyanı tapmaq üçün kifayət qədər çevik formadır.[1]

1990-cı illərdə inteqrasiya nəzəriyyələrində yeni müddüalar formalaşmışdı. Con Paynder neofederalizm nəzəriyyəsinin hazırlanması ideyası ilə çıxış etdi. Bu konsepsiyaya əsasən, Avropa ineqrasiyasının nəzəri təhlili aparılmalı və siyasi tövsiyələr hazırlanmalıdır. Onun fikrincə, sosial və siyasi təzahürlərin qarşılıqlı əlaqəsinə əsaslanan neofunksionalizmdə konstitusiya problemləri və prinsipləri ilə məşğul olan federealizm arasında "ittifaq" yaradılmalıdır. Çağdaş inteqrasiya nəzəriyyələri içərisində yeni institusionalizmə meyl edən Vilyam Uolles və Endrio Moravçikin fikirləri maraq doğurur.

XIX əsrdə Avropa cəmiyyətinin bütün sahələrinin – iqtisadiyyatın, mədəniyyətin, texnikanın və s. inkişafı dövlətlərarası əməkdaşlığın çoxtərəfli forması kimi beynəlxalq sturukturların yaranmasını şərtləndirirdi. Regionun coğrafi vəziyyəti burada hələ qədim zamanlardan aktiv ticarət əlaqələrinin və infrastukturun yaranmasına və inkişafına imkan vermişdir. Qərbi Avropa dünyanın digər regionlarından daha tez sənayeləşmə yoluna qədəm qoymuş və bu inkişafın ən yüksək pillələrinə

[1] Шемятников В.Г. Европейская интеграция. // Международные отношения // М. 2003. с. 334



çatmışdır. Lakin II Dünya müharibəsindən sonra formalaşmış yeni ikiqütblü dünya nizamda Qərbi Avropa ölkələri müstəqil güc mərkəzi rolunu itirmişdi, bu ölkələrin iqtisadi və xüsusilə də hərbi cəhətdən ABŞ-dan asılılığı yaranmışdı. Bundan əlavə, Qərbi Avropanın aparıcı dövlətlərindən heç biri sovet təhlükəsi qarşısında regionun təhlükəsizliyinin təminatını öz üzərinə götürə və beynəlxalq münasibətlərdə müstəqil güc mərkəzi rolunu oynaya bilməzdi. Almaniya xarici işlər nazirininin stats - katibi Halşteyn qeyd edirdi ki, indiki zamanda altı ölkənin hər birində ayrılıqda nə güclü aviasiya sənayesi, nə də güclü atom sənayesinin olması mümkün deyil.[1] Bu səbəbdən Qərbi Avropa ölkələri yalnız birlikdə qısa müddət ərzində istehsal güclərini möhkəmləndirə və mövqelərini bərpa edə bilərdilər. Avropada inteqrasiya proseslərinin başlamasına təsir göstərmiş daha bir amil Qərbi Avropa cəmiyyətində baş verən bəzi keyfiyyət dəyişiklikləridir. Bütün bunlar İkinci Dünya müharibəsindən sonra Avropa ideyasının Qərbi Avropa xalqlarının şüurlarında hakim təsəvvürə çevrilərək onlarda vəhdət hisslərinin güclənməsini şərtləndirdi.

**İkinci paraqraf "Qərbi Avropa sturukturlarına inteqrasiya Türkiyə xarici siyasətinin prioriteti kimi"** adlanır. Türkiyə II Dünya müharibəsindən sonra Türkiyə Qərbi Avropada yeni formalaşan beynəlxalq sturukturlara inteqrasiyanı xarici siyasətinin prioritet istiqaməti kimi müəyyən etdi və praktik müstəvidə bu işi həyata keçirməyə başladı. İlk öncə Marşal planı çərçivəsində yaradılan Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv olan Türkiyə, daha sonra Avropa Şurasına və NATO-ya daxil olmaqla Qərbin beynəlxalq sturukturlarına inteqrasiya prosesinə başlamış oldu.

II Dünya müharibəsindən sonra Türkiyənin təhlükəsizliyi hərbi, iqtisadi meyarla yanaşı, həm də siyasi ölçüyə malik idi. Siyasi təhlükəsizliyinin təmini başlıca olaraq kommunist solçu ideologiyanın Türkiyə ərazisində yayılmasının qarşısını almaq və ideolji boşluqların yaranmasına imkan verməməkdən ibarət idi. Türkiyənin iqtisadi zəifliyi onun ərazisində sosializm ideyalarının yayılmasına zəmin yaradırdı. Bu baxımdan Avropa Şurası güclü totalitor təbliğat qarşısında əsrlər boyu formalaşmış demokratik dəyərlərin və ənənələrin qorunub saxlanmasına, möhkəmlənməsinə və inkişaf etdirilməsinə yardım edəcək güclü siyasi və hüquqi mexanizm idi.

[1] Княжински В.Б. Идея объединения Европы на службы империалистической политики. // Международная жизнь // 1960. №5. с. 51.

1949-cu il avqustun 8-də Türkiyə Avropa Şurasına daxil oldu. Baş nazir H.Sadak bu hadisəni yüksək qiymətləndirirdi: "Atlantika paktına daxil ölkələrlə birlikdə Türkiyənin Avropa Şurasında iştirakı bizi tamamilə qane edir".[1] Türkiyənin Avropa Şurası üzvülüyünə seçilməsi ölkənin təhlükəsizliyinin təmini istiqamətində daha etibarlı təşkilat olan NATO-ya daxil olması üçün zəmin yaratdı.

Türkiyə Şimali Atlantika paktına daxil olmaq məqsədilə 1948-ci il sentyabrın 25-də müraciət etdi. Lakin Türkiyənin Şimali Atlantika blokuna daxil olması ilə bağlı məsələ öncə ABŞ və digər qərb dövlətləri tərəfindən müsbət qarşılanmırdı. Belə ki, ABŞ Türkiyəni regional olaraq bu təşkilatdan kənarda hesab edir, İngiltərə isə reallaşdırmaq istədiyi Yaxın Şərq hərbi planında Türkiyəni mərkəzi dövlət rolunda görmək istəmədiyindən NATO çərçivəsində təmsil olunmasına razı deyildi. İngiltərə Suveş kanalı ilə bağlı maraqlarını həyata keçirməyə çalışırdı. Nəticədə İngiltərə Mərkəzi Şərqdə Misirin də daxil olduğu təhlükəsizlik sistemi yaratmağı planlaşdırırdı. Fransanın da mövqeyi demək olar ki, İngiltərə ilə üst-üstə düşürdü. Fransa da Türkiyənin hər hansı Aralıq dənizi paktında iştirakına tərəfdar deyildi. Bütövlükdə, Avropanın kiçik və böyük dövlətləri Türkiyəni NATO ölkəsi olaraq görmür və ya Sovet İttifaqının təzyiqi ilə qarşılaşacaqlarından ehtiyatlanırdılar. (Bu ölkələr içərisində Norveç, Danimarka, Hollandiya və Belçikanı göstərmək olar).[2]

1950-ci ilin iyun ayının 25-də Koreya müharibəsinin başlanması Türkiyənin NATO-ya daxil olması üçün əlverişli şərait yaratdı. Yeni qurulmuş Menderes hökuməti ABŞ-dan sonra təcavüzə qarşı cavab verən ikinci dövlət oldu. 1951- ci ilin ilk günlərindən Türkiyənin ABŞ və Böyük Britaniya ilə hərbi və siyasi əlaqələri intensiv xarakter aldı.

Nəhayət, 1951-ci ilin sentyabr ayının 16-20-də NATO Nazirlər Şurasının Ottavada keçirilən növbəti iclasında Avropa dövlətləri Türkiyəni yekdil səslə bloka tam hüquqlu üzv kimi qəbul etdilər. Beləliklə, 1948-ci ildən başlanan mübarizə 1952-ci ildə Türkiyənin Atlantik paktına daxil olması ilə nəticələndi.

1950-1960-cı illərdə Türkiyənin Qərb sturukturlarına yaxınlaşması, xüsusilə NATO çərçivəsində geniş təmsil olunması onun Orta Şərq regionunda nüfuzunun artmasına şərait yaratdı. NATO-ya daxil olmaqla

[1] Həsənli Cəmil. SSRİ-Türkiyə; Soyuq müharibənin sınaq meydanı. B: 2005. s.544.

[2] Расизаде А.Ш. Попытки Правительства НРП присоединить Турцию к НАТО в 1948-1950 гг // Турция. история и свроменность .сборник статей // М. 1988. с.143-151.



öz hərbi təhlükəsizliyini təmin olunmasına nail olan Türkiyə 60-cı illərin əvvəllərində iqtisadi inkişafını sürətləndirmək məqsədilə Avropa Birliyinə daxil olmağı öz xarici siyasətinin əsas strategiyasına çevirdi.

Avropa Birliyinin əsası 1951-ci və 1957-ci illərdə imzalanmış Paris və Roma müqavilələri ilə qoyulmuşdur. 1957-ci il Avropa İqtisadi Birliyi haqqında müqavilə bütövlükdə Avropa ölkələrinin iqtisadiyyatının davamlı inkişafını və səmərəliliyinin artırılmasına xidmət etməli idi.

Avropa Birlikləri içərisində (Avropa Kömür və Polad Birliyi, Avropa Atom Enerjisi Birliyi, Avropa İqtisadi Birliyi) inteqrasiya prosesinin ümumi inkişafını və vəziyyətini müəyyən edən başlıca sturuktur AİB idi. Müqaviləyə görə AİB-in məqsədi ümumi bazarın yaradılması və üzv – dövlətlərin iqtisadi siyasətinin tədricən yaxınlaşdırılması yolu ilə bütün birlikdə iqtisadi fəaliyyətin hərtərəfli, daimi və bərabər inkişafına, inkişaf edən sabitliyinə, həyat səviyyəsinin qısa zamanda yüksəlməsinə və üzv dövlətlər arasında daha sıx əlaqələrin yaradılmasına nail olmaq idi. Müqavilə ticarətlə bağlı maneələrin aradan qaldırılmasını, müxtəlif kömrük rüsumlarının ləğv edilməsini və Birliyin üzvü olmayan ölkələrlə ticarətdə ümumi xarici tariflərin müəyyənləşdirilməsini nəzərdə tuturdu. Yaradılacaq yeni Gömrük İttifaqı insanların, məhsulların, xidmətlərin və kapitalın maneəsiz hərəkətini təmin etməli idi.[1]

Türkiyə ilk dəfə 1959-cu il iyulun 31-də Avropa Birliyi Komissiyasına təşkilata assosativ üzv olmaq niyyətilə müraciət etdi. Türkiyənin müraciəti Avropa Birliyinin Nazirlər Şurası tərəfindən müsbət qarşılandı. İstanbulda baş tutan Türkiyə-Almaniya danışıqları nəticəsində 1959-cu ilin avqust ayının 23-də saziş imzalandı. Sazişə əsasən Almaniya hökuməti Türkiyənin "ümumi bazarda" iştirak səylərini dəstəkləyirdi.[2] Bağlanmış sazişlə Türkiyə və Avropa Birliyi arasındakı münasibətlər qurulmağa başladı. 1963-cü ildə Türkiyə-AB arasında bağlanmış Ankara müqaviləsi ilə qarşılıqlı münasibətlərin hüquqi əsası qoyuldu.

Beləliklə, tədqiq olunan dövr üçün Türkiyə-Avropa Birliyi münasibətləri üzvülük hədəfindən daha cox qarşılıqlı iqtisadi əlaqələrin inkişaf etdirilməsi xarakteri daşıyırdı.

**İkinci fəsil "Türkiyə və Avropa İttifaqı arasında münasibətlərin qurulması və ilkin inkişafı"** adlanır. İki paraqrafdan ibarət olan bu fəsildə Türkiyə və Avropa İttifaqı arasında əməkdaşlığın inkişafı və onun

[1] Европейский Союз: факты и комментарии // Институт Европы РАН 1998-2005 // www.a.e.s.orq.ru.

[2] Флтуни Л. Греция и Турция перед вступлением в общей рынок . // МЭМО // 1959. №12.

əsas problemləri təhlil edilir, eyni zamanda Türkiyənin beynəlxalq və daxili siyasi vəziyyətinin də bu prosesə təsiri hərtərəfli araşdırılır.

**"Türkiyənin Avropa İttifaqı ilə əməkdaşlığının təşəkkülü" adlanan birinci paraqrafda** Türkiyənin Aİ-yə inteqrasiya siyasətinin funksional aspektləri araşdırılmış, əməkdaşlıq prosesinin başlıca mərhələləri, bu prosesə təsir göstərən amillər və əsas problemlər müəyyən edilmişdir. 1950-ci illərin sonlarından başlayaraq Türkiyənin Qərbi Avropa ölkələri və beynəlxalq sturukturları ilə iqtisadi əməkdaşlığı intensivləşdirildi. Sürətli sənayeləşmə kursundan ibarət olan iqtisadi inkişafın planlı təmələ əsaslanması, fəal protoksionist siyasət yürüdülməsi və idxal məhsullarını əvəzləyəcək istehsal sahələrinin yaradılmasına başlanıldı.

1963-cü ildə Sənaye İnvestisiyaları və Kreditləri Bankı açıldı. Bankın əsas məqsədi yerli və xarici sənayeçiləri maliyyələşdirməkdən ibarət idi. Türkiyənin iqtisadi inkişafina yardım etmək üçün 1962-ci ildə "Beynəlxalq konsorium" yaradıldı və "ümumi bazar" ölkələri Fransa, İtaliya, AFR, Kanada, B.Britaniya, Avstriya, İsveç, Danimarka, eləcə də bir sıra beynəlxalq təşkilatlar konsorsiuma üzv oldular. Həmin konsorsiumdan Türkiyə üzv dövlətlətlərdən ehtiyac duyduğu kredit və yardım alırdı. Lakin ölkəni siyasi böhran bürümüşdü. Demokratik Partiyanın apardığı xarici və daxili siyasətə qarşı ciddi narazılıq durmadan artırdı. 1960-cı il mayın 27-də keçmiş quru qoşunları komandiri general Camal Gürselin rəhbərliyi ilə əksəriyyəti gənc zabitlərdən ibarət olan Milli Birik Komitəsi (MBK ) hərbi çevriliş edərək A.Menderes hökumətini devirdilər.

Milli Birlik Komitəsi Türkiyədə siyasi və iqtisadi vəziyyəti nisbətən stabilləşdirdikdən sonra Avropa Birliyinə asossativ üzv qəbul edilmək məqsədilə müraciət etdi. Türkiyənin müraciəti Avropa Birliyinin aparıcı dövlətləri tərəfindən müsbət qarşılandı. 1963-cü il sentyabr ayının 12-də Türkiyə və Avropa Birliyi arasında Ankara müqaviləsi imzalandı. Saziş 1964-cü ilin dekabrın 1-də ratifikasiya olunduqdan sonra qüvvəyə mindi və bununla da Türkiyə və Avropa Birliyi arasında münasibətlərin ilkin hüquqi əsası qoyuldu.[1]

Türkiyəni Avropa ailəsinə tam hüquqlu üzv kimi daxil olması yolunda ilk addım olan Ankara müqaviləsinin quruluşu "Əsas anlaşma", "Müvəqqəti protokol", "Maliyyə protokolu" və digər hissələrdən ibarətdir. " Əsas anlaşmada " Gömrük Birliyinin əsasları, istehsal

[1] Bulaç Eli. Avropa Birliyi və Türkiyə. İ. 1999. s.415.



amillərinin sərbəst hərəkəti, tam üzvlük imkanları, problemlərin həlli yolları və ortaqlığın strukturunun müəyyənləşdirilməsi məsələləri önə çəkilirdi. "Müvəqqəti protokol" isə müqavilənin təsdiqlənmə prosesinin gecikəcəyi təqdirdə ticarət qanunlarının həyata keçirmək üçün hazırlanmışdı.

Ankara müqaviləsi Gömrük Birliyinin mərhələli olaraq həyata keçirilməsi ilə yanaşı, tərəflər arasında xidmətlərin və istehsal faktorlarının (işçi qüvvəsi və sərmayə) hərəkətində sərbəstliyin yaradılmasını da nəzərdə tuturdu.[1] Müqavilə Türkiyənin iqtisadi inkişafını nəzərə alaraq onun Gömrük Birliyinə daxil olma prosesini üç mərhələyə bölürdü: 1) Hazırlıq mərhələsi; 2) Keçid mərhələsi; 3) Sonuncu mərhələ.

Hazırlıq mərhələsi 1964-cü ilin dekabrın 1-dən 1972-ci ilin sonuna qədər davam etməli idi. Bu mərhələdə Türkiyə iqtisadiyyatı inkişaf etdirilməli və bu məqsədlə birinci maliyyə protokoluna uyğun olaraq Türkiyəyə 175 mln. ekyu dəyərində yardım edilməsi nəzərdə tutulurdu. Müqavilə Türkiyəyə kənd təsərrüfatı mallarının ixracatında da böyük güzəştlər verirdi. Ankara sazişinin üçüncü maddəsinə görə, Türkiyə hazırlıq mərhələsinə, keçid və son mərhələ üçün üzərinə düşəcək vəzifələri yerinə yetirməli və Birliyin köməyi ilə iqtisadiyyatını gücləndirməli idi.[2]

Keçid mərhələsi 1973-cü ilin yanvarın 1-dən 1996-cı ilin yanvarına qədər olan dövrü əhatə edirdi. Bu mərhələnin sonunda Türkiyənin Avropa Birliyi ilə sənaye malları ticarətində Gömrük Birliyinin yaradılması prosesi başa çatmalı idi. Sonuncu mərhələ isə hər iki tərəfin iqtisadi siyasətləri arasında kordinasiyanın yaradılmasını nəzərdə tuturdu.

Türkiyə üzərinə düşən öhdəlikləri uğurla yerinə yetirməyə çalışsa da, 70-ci illərdə bu prosesdə durğunluq yaranmışdı. 1973-ci ildə baş vermiş dünya böhranı Türkiyənin iqtisadi vəziyyətinə mənfi təsir göstərdi. Həmçinin ölkədə siyasi durumun da qənaətbəxş olmaması Türkiyənin AB ilə münasibətlərinə mənfi təsir göstərirdi. Bu dövrdə aktuallaşan Kipr problemi ikitərəfli münasibətlərin daha da gərginləşməsinə səbəb oldu.

**"Türkiyənin beynəlxalq və daxili siyasi vəziyyətinin Avropa Birliyi ilə münasibətlərinin təkamülünə təsiri"** adlanan **ikinci paraqrafda** 70-80-ci illərdə Türkiyə və AB arasında münasibətlərin inkişaf dinamikası təhlil edilir.

[1] Dura C., Atik H. Avropa Birliyi Gömrük Birliyi və Türkiyə. A. 2003. s 488

[2] Türkiye ile AET arasındakı ortaqlıq anlaşması (belqeler / Temel anlaşma metnleri) // Ali Bulacın eserinden // A. 1999. s.276.

Qeyd olunan mərhələdə Türkiyə hökuməti iqtisadi və siyasi böhrandan çıxmaq üçün bir sira proqramlar qəbul edərək onları həyata keçirməyə başladı. "İqtisadiyyatın stabilləşdirilməsinə dair qanunlar paketində" iqtisadiyyatın bütünlüklə bazar və rəqabət prinsiplərinə uyğunlaşdırılması, iqtisadi yüksəlişin sürətləndirilməsi və modernləşdirilməsi üçün xarici amillərdən və ehtiyatlardan hər tərəfli istifadə olunması, xarici malların və kapitalın ölkədə azad fəaliyyətinə lazımi şərait yaradılması, sənayeləşdirmənin idxal yönümlü modelindən ixrac yönümlü modelinə keçilməsi məsələləri prioritet təşkil edirdi. Lakin, ölkədə baş verən siyasi böhran iqtisadi dirçəlişə mane oldu.

1980-ci il sentyabrın 12-də Türkiyədə baş vermiş hərbi çevriliş nəticəsində general Kenan Evrenin rəhbərlik etdiyi hərbiçilər hakimiyyətə gəldilər. Hərbçi iqtidarın hakimiyyəti ələ keçirməsindən sonra Türkiyədə parlament və hökumət buraxıldı, bütün partiyaların fəaliyyəti dayandırıldı. Bəzi nüfuzlu siyasətçilərlə birlikdə mindən çox adam həbs olundu.[1] Sentyabr ayının 21-də admiral Bülent Ulusun rəhbərliyi ilə yeni hökumət təşkil edildi.

AB hərbi çevrilişə qarşı ilk etirazını 1980-ci ilin sentyabr ayının 13-də Komissiya vasitəsilə bildirdi. Komissiya "Türkiyədəki hadisələri diqqətlə izlədiyini və tezliklə insan haqlarına hörmət olunacağına ümid etdiyini" bildirdi. Lakin, Komissiyanın rəyində hərbi çevrilişin AB-Türkiyə münasibətlərinə konkret təsirləri açıqlanmırdı. Avropa Parlamentinin məsələ ilə bağlı münasibətində də bənzər münasibət göstərilirdi. AB bir tərəfdən Türkiyənin "incildilməməsinə" çalışır, digər tərəfdən Türkiyədə insan hüquqlarının pozulmasından narahatlığını bildirən birlik üzvləri (Danimarka, Hollandiya) və ya ABŞ-ın Türkiyə üzərindəki güclü təsirinin azaldılmasının tərəfdarı olan üzvlər (məs. Fransa) demokratik rejimin bərpa olunmayacağı təqdirdə hərbi rejimlə münasibətlərin kəsiləcəyi məsajlarını verirdilər. Bütövlükdə, hərbi çevriliş Türkiyəni AB-yə üzvülük şansını sıfıra endirmişdi.

1983-cü il noyabrın 6-da keçirilən parlament seçkilərində Ana Vətən partiyası qalib gəldi. ANAP hökuməti ölkədə iqtisadi və siyasi sabitliyi bərpa etdikdən sonra AB-Türkiyə əməkdaşlığının inkişaf etdirilməsinə və yeni səviyyəyə qaldırılmasına çalışırdı. Nəhayət, Türkiyə 1987-ci il aprelin 14-də Avropa Birliyinə tam hüquqlu üzv qəbul olunmaq üçün

[1] Gencer Özcan. Türkiyədə siyasi rejim və dış politika (1983-1993). İ.1998. s.271.



müraciət etdi.[1] Avropa Komissiyası 2 il yarım sürən araşdırmanın nəticələrini 1989-cu il dekabrın 18-də "Türkiyə iqtisadiyyatının sturukturu və inkişafı"adlı məruzədə açıqladı. Məruzədə problemli məsələlər kimi aşağıdakı məsələlər göstərilirdi:

1) Kənd təsərrüfatında və sənayedə sturuktur dəyişiklərin aparılması;

2) 1980-ci illərdə neqativ inkişaf tendensiyasına malik iqtisadiyyatın qeyri-sabit göstəriciləri;

3) Sənayedə himayəçiliyin yüksək həddi;

4) Sosial müdafiənin zəif olması.

Məruzədə hərbi çevrilişdən sonra Türkiyədə demokratik rejimin bərpa olunması müsbət hal kimi qeyd olunsa da, insan hüquqlarının qorunması, milli azlıqların (məs: kürdlərin) demokratik hüquqlarının tanınması kimi məsələlərin hələ də həllini gözlədiyi vurğulanırdı.

Beləliklə, 80-ci illərdə Türkiyədə daxili siyasi vəziyyətin gərgin olması onun xarici siyasi durumuna da mühüm təsir göstərdi. Hərbiçilərin hakimiyyəti ələ keçirməsi Avropa Birliyi ilə münasibətlərə böyük zərbə vurdu. Hətta ölkədə demokratik rejim bərpa olunduqdan sonra hakimiyyətə gələn Turqut Ozalın iqtisadi sahədə apardığı mühüm islahatlar ölkənin yenidən dirçəlməsinə, onun böyük sənaye dövlətinə çevrilməsinə baxmayaraq, Avropa İttifaqı Türkiyənin həm iqtisadi, həm də sosial sahələrdə inkişafını müvafiq tələblərə cavab verməməsini iddia edərək onunla münasibətləri dərinləşdirmədi.

Dissertasiyanın **üçüncü fəslində "Yeni sistemin formalaşması və Türkiyə-Aİ münasibətlərinin inkişafı"** təhlil edilmişdir. Bu fəsildə Türkiyə Avropa İttifaqı münasibətləri həm beynəlxalq sistem, həm də qarşılıqlı əməkdaşlığın perspektivləri kontekstində araşdırılmışdır.

**"Avropa İttifaqının Şərqə doğru genişlənmə siyasəti və Türkiyə"** adlanan **birinci paraqrafda** 90-cı illərdə dəyişən dünya nizamı çərçivəsində Aİ-Türkiyə münasibətlərinin yeni inkişaf dinamikası tədqiq olunur.

1992-ci il fevralın 7-də Maastrixtdə Avropa Birliyinin üzv dövlətləri tərəfindən "Avropa İttifaqının yaradılması haqqında" imzalanan müqavilə Avropada inteqrasiya proseslərinin üç istiqamətini müəyyənləşdirdi :

1) Avropa Birlikləri çərçivəsində aparılan inteqrasiya başlıca və əsas istiqamət kimi təsdiqləndi;

[1] Кунаков В.В. Турция и ЕС: проблемы экономической интеграции. М. 1999. s. 127

2) Siyasi fəaliyyət sahələri olan xarici siyasət və təhlükəsizlik siyasəti sahəsində əməkdaşlıq;

3) Müqavilədə əməkdaşlıq formaları kimi müəyyən edilən daxili işlər və ədliyyə sahəsində əməkdaşlıq;

Maastrixt müqaviləsi İttifaq daxili inteqrasiyanın dərinləşməsi istiqamətində yeni mərhələnin başlanğıcı oldu. Bu mərhələdə Aİ Türkiyə münasibətlərində yeni inkişaf tendensiyası diqqəti cəlb edirdi. Xüsusilə iqtisadi əməkdaşlığın intensivləşməsi müşahidə olunurdu.

1993-cü il Avropa İttifaqının Kopenhagendə keçirilən iclasında Birliyə namizəd olmaq istəyən ölkələr üçün yeni meyarların qəbul edilməsi Türkiyənin vəzifələrinin artmasına səbəb oldu. Demokratiyanın, hüququn üstünlüyünün, milli azlıqların hüquqlarını qoruyan qurumların müstəqilliyini təmin etmək, Avropa İttifaqı daxilində rəqabətə davam gətirə bilən güclü iqtisadiyyata sahib olmaq, siyasi, iqtisadi və maliyyə birliyi də daxil olmaqla tam üzvülükdən irəli gələn vəzifələri yerinə yetirmək İttifaqın əsas meyarları olaraq elan edildi. Lakin Kopenhagen zirvə görüşündə Türkiyə bu meyarları yerinə yetirməyən ölkələr içərisində xüsusi qeyd olunurdu. Birlik Türkiyəni siyasi inkişaf tempindən narazılığını ifadə etsə də, Gömrük Birliyinin yaradılması ilə bağlı ikitərəfli əməkdaşlıq münasibətləri intensivləşmişdi.

Nəhayət, 1995-ci il martın 6-da Türkiyə və Aİ arasında Gömrük sazişi bağlandı. Gömrük Birliyi haqqında müqaviləyə əsasən Türkiyə Avropa İttifaqının gömrük rüsumlarına dair vahid tarif sisteminə daxil olurdu. Lakin iqtisadi saziş tərəflər arasında problemləri tam həll etmədi. Həm Lüksemburq zirvə görüşündə (1997), həm də Kölndə keçirilən iclasda (1999) Aİ üzv – dövlətləri Türkiyənin üzvlüyünə qarşı sərt mövqe nümayiş etdirdi. Yalnız 1999-cu ildə keçirilən Helsinki zirvə görüşündə Türkiyə Aİ-nın namizəd ölkələri sırasına qəbul edildi. Bu mərhələdən sonra Türkiyə aktiv şəkildə fəaliyyətə başladı. 2000-ci ildə Aİ tərəfindən qəbul olunan Birliyə Qoşulma Sənədi İttifaqla Türkiyə arasında əməkdaşlığın dərinləşdirilməsinin təməl daşı hesab olunur. Hətta buna yol xəritəsi də deyilir. Sənəddə insan hüquqları, demokratikləşmə, milli azlıqların hüquqlarının qorunması, Kipr probleminin həlli, qonşularla münasibətlər və iqtisadi məsələlərə geniş yer verilirdi.[1]

2005-ci ildə Brüssel zirvə görüşündə Türkiyənin üzvülük müzakirələrinə rəsmi başlaması haqqında sənədin qəbul edilməsi ikitərəfli

[1] Derviş Kemal, Qros Daniel, Emerson Michael, Ülqen Sinan. Çağdaş Türkiyənin Avropa dönüşümü. İ. 2004.



münasibətləri növbəti mərhələyə keçirdi. Bu mərhələdə Aİ Türkiyə arasında üzvülük müzakirələrinin aparılması ilə bağlı "Müzakirə çərçivə sənədi" qəbul edildi. Burada Kopenagen meyarlarının qəbulu, "Acquis-communautairenin" (Aİ-nin hüquqi sənədlər toplusu) qəbulu və yerinə yetirilməsi, Türkiyədə vətəndaşlıq cəmiyyətinin inkişaf etdirilməsi məsələləri prioritet təşkil edirdi.

**"Aİ-Türkiyə qarşılıqlı münasibətlərinin perspektivləri"** adlanan **ikinci paraqrafda** qarşılıqlı münasibətlərin perspektivləri; kürd məsələsinin mümkün qədər tez və sivil formada həlli; Kipr münaqişəsinin həlli; ABŞ-Avropa və Rusiya-Avropa münasibətlərinin xarakterinin Türkiyənin İttifaqa inteqrasiya perspektivlərinə təsiri; Avropa İttifaqının sturukturunun təkamülü və aparıcı üzv dövlətlərdə siyasi hakimiyyətin mövqeyi kimi amillərin təhlili əsasında öyrənilmişdir.

2007-ci ilin yanvarın 10-da Türkiyə hökuməti Avropa İttifaqına qoşulma strategiyasını müəyyənləşdirən sənədi qəbul etdikdən sonra fəal şəkildə ölkədə islahatlar keçirilməyə başladı. Bundan əlavə, Türkiyə Aİ normalarının qəbul edilməsi ilə bağlı Milli proqram qəbul etdi. Milli proqram çərçivəsində Türkiyənin Aİ-yə inteqrasiya siyasəti daha da intensivləşdi. Yeni konstitusiya islahatının keçirilməsinə hazırlıqların başlanması, insan hüquqlarının qorunması məsələlərində ciddi irəliləyişlərin baş verməsi, məhkəmə sahəsində Avropa standartlarının tətbiqi, Türkiyədə hərbiçilərin hakimiyyətinin zəiflədilməsi kimi məsələlərdə Aİ Türkiyədən razılığını ifadə etsə də, bəzi problemlərin movcudluğu ikili münasibətlərin lazımi inkişafına imkan vermirdi. Bu problemlər içərisində etnik(kürd) narazılıqların və Kipr probleminin həlli Birlik tərəfindən Türkiyə üzərinə şərt olaraq qoyulan mühm məsələlərdəndir. Bundan əlavə, Türkiyənin Aİ-yə inteqrasiyasını əngəlləyən səbəblər arasında onun islami dəyərlərə mənsub olması, ölkə əhalisinin artım dinamikasının yüksək olması, coğrafi baxımdan Yaxın Şərqlə sərhəd olması kimi önəmli amillər də böyük rol oynayır. Yuxarıda sadalanan problemlərin həll edilməsi Türkiyəni bəzi çətinliklərlə qarşı qarşıya qoydu, nəticədə onun Aİ-yə inteqrasiya siyasətinin ləngiməsinə səbəb oldu.

Bu fəsildə Azərbaycanın Aİ ilə münasibətlərinin qurulması və perspektivləri də araşdırılmışdır.

**Nəticədə** aparılmış tədqiqata yekun vurulur, problemin mahiyyəti və həlli perspektivləri ilə bağlı təklif və tövsiyələr irəli sürülür.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi işlərində əks olunmuşdur.**

1. Türkiyə və Avropa Birliyi // Beynəlxalq həyat . Bakı, 2003. №1, s.92-96.
2. 1980-ci illərdə Türkiyə-Avropa Birliyi münasibətləri //Tarix və onun problemləri . Bakı, 2006. №4, s.182-187.
3. Türkiyə və Avropa İttifaqı münasibətləri (1990-cı illər) // Elmi xəbərlər . Bakı, 2007. №3, s.297-302.
4. XXI əsrin əvvəllərində Türkiyə-Avropa İttifaqı münasibətləri // Dünyaya baxış . Bakı, 2008. № 1, s 152-159
5. Başlanğıcdan günümüzə Kıbrıs sorununun gelişimi ve AB-Türkiye ilişkilerinde etkisi // Turan Strateji Araşdırmalar Merkezi. Uluslararası Bilimsel Hakemli Mevsimlik Dergi . 2009. №3, s. 43-48.
6. Türkiyə-Avropa İttifaqı münasibətlərində milli azlıqlar məsələsi. //Tarix və onun problemləri . Bakı, 2009. №4, s.240-244.
7. II Dünya müharibəsindən sonra Türkiyənin beynəlxalq vəziyyəti və təhlükəsizliyinin təmini məsələsi // Iqtisad elmləri : Nəzəriyyə və Praktika . Bakı, 2010. № 2, s.253-258.
8. К вопросу об обязательствах в процессе интеграции в Европейский союз // Межкультурные коммуникации . Тбилиси, 2012. № 17, s.155-158.
9. Türkiyənin Avropa İttifaqına inteqrasiya siyasətinin problemləri // Müasir dünyada inteqrasiya və müqavimət prosesləri mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı, Azərbaycan Univeristeti, 9 iyun 2012. s.42-45.
10. Avropa İttifaqının üzvülüyə qəbul meyarları və Türkiyə // Geostrategiya. Aylıq ictimai-siyasi, elmi-populyar jurnal. 2012. №6(12), s.45-49.



**Лейли Али кызы Гамидова**

**Взаимоотнощения между Турцией и Европейским Союзом**
**Резюме**

В 50-х годах XX века западноевропейскими государствами было создано Европейское сообщество, обеспечивающее долгосрочное и продолжительное сотрудничество между его членами. Невозможность вступления Турции в ЕС превратилось в сложную проблему в отношениях этих двух субъектов международных отношений, что способствовало возникновению потребности научно-политического изучения данного вопроса.

Цель диссертационного исследования заключается в том чтобы изучив и проанализировав установление отношений между Турцией и ЕС, их эволюцию, современное состояние и перспективы развития, выявить факторы, которые превратились в препятствие на пути вступления Турции в ЕС, выдвинуть свои предложения по решению этих проблем.

Диссертационная работа состоит из введения, трех глав, шести параграфов, заключения и списка использованной литературы.

В введении обосновывается актуальность и степень изученности темы, определяются цель и задачи исследования, его научная новизна, теоретико-методологическая основы , также показана теоретическая-практическая значимость диссертации .

В первой главе исследуется возникновение европейской идеи, которая является идеологической основой ЕС, теоретическая основа интеграции и первый этап интеграции Турции в международные структуры сформировавшиеся а Западной Европе.

Во второй главе рассматривается процесс развития сотрудничества между Турцией и ЕС, анализируются основные проблемы этого сотрудничества, одновременно, всесторонне исследуется влияние внутреннего и международного положения Турции на этот процессе.

В третьей главе исследуются взаимоотношения Турции с ЕС в контексте развития международной системы и перспективы этого сотрудничества.

В заключении подводятся итоги проведенного исследования, выдвигаются предложения и рекомендации по данной проблеме и перспективы ее решения.

**Leyli Ali Hamidova**

## Relationships between Turkey and European Union
## Summary

In 50th years of the 20th century European Community which provided sustainable and long-term cooperation of Western European countries was established. In order to be member of this organization The Republic of Turkey started active political actions, however Turkey's more than 50 years- long efforts did not give any practical result. Due to the failure in Turkey's accession to EU, relationship between the two subjects of international relations has got complicated and there is an academic-political necessity of learning this issue.

The purpose of the dissertation is to define the factors that make Turkey's EU membership problematic by analyzing and researching the establishment, evolution, modern situation and perspectives of EU-Turkey relations, as well as suggest some proposals and recommendations about the solutions of the problem. Dissertation consists of an introduction, three chapters, six paragraphs, conclusion and bibliography.

In the introduction the author substantiates the actuality of the topic, defines the purpose and goals of the research, as well as indicates its scientific innovation, theoretical-methodological and reference basis, theoretical and methodical significance, as well as, reviews the level of research of the topic.

The first chapter examines the origins of the European Union's ideological basis - the European idea, theoretical basis of the integration and the first stage of the integration policy of Turkey to the international structures of the Western Europe.

The second chapter analyses the development of Turkey-EU relations and its major problems, at the same time examines Turkey's internal and international situation and its influence to this process.

The third chapter studies the bilateral relations of Turkey and EU in the context of development of international system, in addition this chapter analyses the perspectives of the cooperation.

In the conclusion the research is finalized, and some suggestions and recommendations are suggested related to essence and solution of the problem.



***Kağız formatı 60x84 1/16.***
***Həcmi 1,5 ç.v.***

---

***" İqtisad Universiteti " Nəşriyyatı.***
***AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6***

**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**ЛЕЙЛИ АЛИ кызы ГАМИДОВА**

# ВЗАИМООТНОШЕНИЯ МЕЖДУ ТУРЦИЕЙ И ЕВРОПЕЙСКИМ СОЮЗОМ

**Специальность : 23.00.04 - “Политические проблемы международных отношений и глобального развития”**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по политическим наукам**

**ВАКУ - 2013**